Rəsmi dövlət qəzeti

AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 13 (3326) CÜMƏ, 17 YANVAR 2003-cü il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | İNDEKS 0001 | www.azerbaijan.news.az | Qiyməti 1000 manat

# 20 Yanvar faciəsini törədənlər ədalət mühakiməsinə cəlb edilməlidir

## Bu bəyanat Qafqaz Müsəlmanları İdarəsinin yığıncağında səslənmişdir

Yanvarın 16-da Qafqaz Müsəlmanları İdarəsi "Azərbaycan" otelinin konfrans salonunda 20 Yanvar faciəsinin 13-cü ildönümü münasibətilə yığıncaq keçirmişdir.

Qafqaz Müsəlmanları İdarəsinin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, yığıncaqda respublikanın müxtəlif bölgələrini təmsil edən qazilər, idarənin nəzdində fəaliyyət göstərən Elmi-Dini Şuranın üzvləri, Türkiyənin və İranın Bakıdakı səfirliklərinin, dini icmaların nümayəndələri və mətbuat işçiləri iştirak edirdilər.

Bütün Qafqaz müsəlmanlarının lideri Şeyxülislam Hacı Allahşükür Paşazadə yığıncağı açaraq, 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakıda törədilmiş misilsiz qırğının canlı şahidi kimi, xalqımızın başına gətirilmiş müsibətin heç zaman yaddan çıxmayacağını vurğuladı.

20 Yanvar gününü xalqımızın milli suverenlik, azadlıq uğrunda mübarizəsinin şanlı səhifəsi kimi xarakterizə edən Şeyxülislam bildirdi ki, təpədən dırnağadək silahlanmış imperiya ordusunun cəza tədbirləri millətimizin müstəqillik əzmini qıra bilmədi. Əksinə, yumruq kimi birləşən xalqımız haqq səsini daha yüksəkdən bəyan etdi. Bu səsi əvvəlcə Moskvadan xalqımızın qəhrəman oğlu, yenilməz şəxsiyyət, qüdrətli dövlət xadimi Heydər Əliyev ucaltdı, qanlı cinayətin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında qəzəblə ittiham etdi.

Şeyxülislam Hacı Allahşükür Paşazadə diqqətə çatdırdı ki, aradan 13 il keçməsinə baxmayaraq, 20 Yanvar faciəsinin baiskarları hələ də öz layiqli cəzalarını almayıblar. Biz tələb edirik ki, Azərbaycan xalqının cəlladlarına məhkəmə qurulsun. Bu faciənin baş drijoru və ilhamvericisi olan Mixail Qorbaçov, onun əlaltıları, o cümlədən "sapı özümüzdən olan baltalar" ədalət mühakiməsinə cəlb olunsunlar.

Yığıncaqda Qafqaz İslam Universitetinin rektoru, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Sabir, Elmi-Dini Şuranın üzvləri, akademiklər Fuad Qasımzadə, Bəkir Nəbiyev, Teymur Bünyadov, Prezidentin İcra Aparatı ictimai-siyasi şöbəsinin əməkdaşı Ərəstun Mehdiyev və digər natiqlər çıxış edərək bildirdilər ki, 20 Yanvar təkcə ümumxalq hüzn günü kimi deyil, xalqımıza, xüsusilə, gənclərimizə qəhrəmanlıq və vətənpərvərlik ruhu aşılayan gün kimi qeyd edilməlidir. Natiqlər qanlı 20 Yanvarı törədənlərin gec-tez ədalət məhkəməsi qarşısında duracaqlarına əmin olduqlarını vurğuladılar.

Sonra 20 Yanvar şəhidlərinin ruhuna dua oxundu.

Mərasimdə Qafqaz Müsəlmanları İdarəsinin 20 Yanvar faciəsinin 13-cü ildönümü münasibətilə qəbul etdiyi bəyanat oxundu. Bəyanatda deyilir:

Bismillahir-rəhmanir-rəhim!

1990-cı ilin qanlı hadisələrindən sonra 20 Yanvar günü Azərbaycan xalqının tarixi yaddaşına dərin hüzn və kədər günü kimi həkk olunmuşdur. 13-cü ildönümünü qeyd etməyə hazırlaşdığımız 20 Yanvar faciəsi əsla unudulmayacaqdır! Əzəldən bağışlamağı bacaran, qanı su ilə yumağa hazır olan bir xalqın başına gətirilmiş müsibəti yaddan çıxarmaq olmaz! Haqqı tələb etdiklərinə görə minlərlə insanın güllələbaran edilməsini yaddaşlardan silmək mümkün deyil! Şəhid olanların, yaralananların, itkin düşənlərin ağrı-acısı hələ də qəlblərdədir.

Bütün faciəsi ilə yanaşı, 20 Yanvar günü xalqımızın milli suverenlik, azadlıq uğrunda şəhidliyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzinə çevrilmişdir. Təpədən dırnağadək silahlanmış ordunun cəza tədbirlərinə məruz qalan xalq diz çökmədi, azadlıq əzmini itirmədi, əksinə, haqq səsini daha da yüksəkdən bəyan etdi. Bu səsi əvvəlcə Moskvadan xalqımızın mərd oğlu, müdrik dövlət xadimi Heydər Əliyev ucaltdı, qanlı cinayətin təşkilatçılarını qəzəblə ittiham etdi, həmin cinayəti hüquqa, demokratiyaya, humanizmə zidd hadisə kimi xarakterizə etdi.

Bakıda isə Şeyxülislam Allahşükür Paşazadə SSRİ prezidenti Mixail Qorbaçova göndərdiyi qəzəb dolu məktubunda hadisələrə sərt və prinsipial münasibətini bildirdi. Siyasi liderimizin və dini rəhbərimizin kəskin müraciətləri xalqı ruhlandırdı və birləşdirdi. Bir milyondan artıq insan təqiblərdən, hətta ölümdən qorxmayaraq şəhərin baş meydanına axışdı, azadlıq uğrunda qurban getmiş şəhidlərin ruhuna and içərək onları torpağa tapşırdı. Azadlıq və demokratiyadan dəm vuran bəzi ölkələr və beynəlxalq təşkilatlar bilərəkdən susmağa üstünlük versələr də Dərbənddə, Borçalıda, Təbrizdə, İstanbulda və dünyanın bir çox ölkələrində şəhidlərimizə matəm saxlanıldı, xalqımızla həmrəylik bildirildi.

Qafqaz Müsəlmanları İdarəsi qanlı hadisələrin ilk günündən çalışmışdır ki, Dağlıq Qarabağ münaqişəsinin davamı olan 20 Yanvar faciəsini dünya ictimaiyyətinə, nüfuzlu beynəlxalq təşkilatlara çatdırsın, haqq işimizə dəstək qazansın, törədilən cinayət bəşəriyyətə qarşı yönəldilən amansız cəza tədbiri kimi qiymətləndirilsin.

Lakin etiraf edilməlidir ki, bu günə qədər 20 Yanvar faciəsini törədən cinayətkarlar məsuliyyətə cəlb olunmayıb və Azərbaycan xalqının cəlladları layiqli cəzalarını almayıblar.

Azərbaycan xalqının tam mənəvi haqqı vardır ki, öz qatillərini - M.Qorbaçovu və onun əlaltılarını, o cümlədən, "sapı özümüzdən olan baltaları" məhkəməyə cəlb etsin. Elə açıq məhkəmə qurulmalıdır ki, orada dəlil və sübutlar, sənədlər və canlı şahidlərin ifadələri, beynəlxalq qanunlar zəminində və ekspertlərin rəyi əsasında canilərin qəddarlığı, riyakarlığı, vəhşiliyi, əsl niyyətləri dünya ictimaiyyətinə tam şəkildə açılsın.

Əsas məqsədlərdən biri də o olmalıdır ki, cinayətlərə, çirkin əməllərə bəraət qazandırmaq üçün heç vaxt dini amillərdən istifadə olunmasın. Azərbaycanda olduğu kimi, "İslam fundamentalizmi" bəhanəsi altında xalqlara qarşı əsassız ittihamlar yürüdülməsin və nəticə etibari ilə günahsız insanların qanı tökülməsin. Azadlığın, müstəqilliyin yolu ağırdır, daşlı-kəsəklidir. Bu yolu qurban vermədən keçmək mümkün deyildir. Şəhidlərimiz olmuş və yenə də ola bilər. Odur ki, 20 Yanvar günü matəm libası geyib kədərə və qüssəyə batmaq günü deyil, şəhidlərimizi anmaq, xalqımızda, xüsusilə gənclərimizdə qəhrəmanlıq və vətənpərvərlik ruhu tərbiyə etmək günü olmalıdır.

Şəhidlik imanın, vətənpərvərliyin, əqidə və amal uğrunda mübarizənin ən yüksək zirvəsidir. Çünki şəhidlər Allahın onlara göndərdiyi imtahandan mərdliklə, fədakarlıqla çıxırlar.

Qurani-Kərimdə buyurulur: "Allah yolunda öldürülənləri (şəhid olanları) heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub ruzilənirlər..." (Ali-İmran, 169).

Qafqaz Müsəlmanları İdarəsi bütün Qafqaz müsəlmanları adından 20 Yanvar şəhidlərinin, eləcə də Vətənimizin bütövlüyü və milli müstəqilliyimiz uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin ailələrinə dərin hüznlə başsağlığı verir.

Bu gün hər bir azərbaycanlının boynunda şəhid haqqı vardır. Biz şəhid ailələrini unutmuruq və heç zaman unutmayacağıq. Əlimizdən gələni etməliyik ki, onlar bizim qayğı və diqqətimizlə əhatə olunsunlar.

Şəhidlərin ruhuna ən böyük töhfə Qarabağ zəfəri, Vətənimizin qüdrəti, xalqımızın xoşbəxtliyidir. Biz inanırıq ki, Allahın köməyi və möhtərəm prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə yaxın gələcəkdə millətimiz öz ülvi arzularına yetişəcəkdir və doğma Azərbaycanda qələbə naminə bayram namazları qılınacaqdır.

Qafqaz Müsəlmanları İdarəsi bütün məscidlərə tövsiyə edir ki, 20 Yanvar günü bu bəyanatın mətni oxunsun, əziz şəhidlərimizin ruhlarına dualar edilsin.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

**AzərTAc**